“Bu, yetmiş payız (il) əvvəl cəhənnəmə atılmış bir daşdır və o, bu vaxta qədər düşürdü və dibinə indi çatdı”

Əbu Hureyradan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Biz Allah Rəsulu ilə (Allahın salavatı və salamı onun üzərinə olsun) birlikdə idik ki, o yerə düşən bir şeyin səsini eşitdi və dedi: “Bilirsinizmi, bu nədir?” Biz dedik: “Allah və Rəsulu daha yaxşı bilir” Dedi: “Bu, yetmiş payız (il) əvvəl cəhənnəmə atılmış bir daşdır və o, bu vaxta qədər düşürdü və dibinə indi çatdı”.

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cisimlərdən bir cismin düşməsi kimi qorxunc bir səs eşitdi və yanında olan səhabələrdən (Allah onlardan razı olsun) bu səs haqqında soruşdu və onlar dedilər: Allah və Rəsulu daha yaxşı bilir. O (Allahın salavatı və salamı onun üzərinə olsun) onlara dedi: Eşitdiyiniz bu səs yetmiş il əvvəl Cəhənnəmin kənarından atılmış bir daşın səsidir, o orada düşməyə davam edirdi ki, indi səsi eşitdiyiniz zaman cəhənnəmin dibinə çatdı.

http://www.sunnah.global/hadeeth/az/show/3370